# XOYSKİ
# MEDİASİYA MÜSABİQƏSİ

---

## 2024
## QAYDALAR

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ
TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ
TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: moot.bsulawss.org
E-poçt: moot@bsulawss.org

# MÜNDƏRİCAT

Müsabiqə haqqında məlumat ..... 3
I. İştirak üçün tələblər ..... 3
II. Müsabiqənin mərhələləri ..... 4
III. Mediasiya problemi və planı ..... 5
IV. Mediasiya sessiyaları ..... 6
V. Yarım-final və Final mərhələsinin sessiyaları ..... 7
VI. Qiymətləndirmə və sıralama ..... 7
VII. Cəzalar ..... 9
VIII. Nominasiyalar ..... 10

# Müsabiqə haqqında məlumat

Xoyski Mediasiya Müsabiqəsi (bundan sonra "Müsabiqə"; ingiliscə: Khoyski Mediation Moot) Fətəli xan Xoyskinin (1875 – 1920) xatirəsinə həsr olunmuş, mübahisələrin alternativ həll üsullarının öyrənilməsinə əsaslanan Müsabiqədir. Müsabiqə Bakı Dövlət Universiteti Hüquq Fakültəsi Tələbə Elmi Cəmiyyəti (bundan sonra – Təşkilatçı) nəzdində fəaliyyət göstərən Məhkəmə Müsabiqə Cəmiyyəti tərəfindən təşkil edilir və Yazılı, Şifahi, Yarım-final və Final mərhələlərindən ibarətdir.

Bu Qaydalar Müsabiqənin bütün gedişatını tənzimləyir və 2024 Xoyski Mediasiya Müsabiqəsi üçün keçərlidir. Komandaların keçmiş təcrübə və qaydalara istinad etməsi məqbul səbəb kimi qiymətləndirilmir. Qaydalar ilə bağlı suallar rəsmi Müsabiqə e-poçtuna yönləndirilə bilər: moot@bsulawss.org

Eyni zamanda, Müsabiqə iştirakçıları qaydaların izahı üçün koordinatorlara müraciət edə bilərlər. Qaydaların izahı və digər əlaqəli qərarlar koordinatorların diskresion səlahiyyətləri daxilindədir.

# I. İştirak üçün tələblər

**I.1. Uyğunluq.** Müsabiqədə bakalavr və magistr dərəcəsi üzrə hüquq, biznesin idarə edilməsi və əlaqəli ixtisaslarda təhsil alan tələbələrdən təşkil olunmuş komandalar iştirak edə bilərlər. Hansı əlaqəli ixtisaslar üzrə təhsil alan tələbələrin Müsabiqədə iştiraka uyğun olması məsələsi Təşkilatçının diskresion səlahiyyətlərinə aiddir.

*Qeyd:* Komanda üzvlərindən birinin hüquqşünaslıq ixtisası üzrə təhsil alması mütləqdir.

**I.2. Qeydiyyat.** Müsabiqədə iştirak etmək istəyən komandalar müvafiq veb-saytda – https://mcs.bsulawss.org/?page_id=82 – qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçdikdən sonra hər bir komanda qeydiyyat sırasına müvafiq olaraq nömrələnir və bu nömrə Müsabiqə müddətində komanda göstəricisi kimi istifadə edilir.

**I.3. Say.** Hər bir komanda qeydiyyat zamanı ən azı 2 (iki), ən çoxu isə 4 (dörd) üzvdən ibarət olmalıdır. Əgər üzvlərdən biri komandanı tərk edərsə, onun əvəzləşdirilməsi I.5.-də göstərilmiş qaydalara uyğun həyata keçirilir. Müsabiqədən geri çəkilmək və komanda üzvlərinin əvəzləşdirilməsi üçün son tarix Müsabiqə Təqvimində (bundan sonra "Təqvim") qeyd olunur.

**I.4. Nümayəndə.** Hər bir komanda öz üzvlərindən birini komanda nümayəndəsi təyin etməlidir. Nümayəndə Təşkilatçıya işlək mobil əlaqə nömrəsi və e-poçt ünvanı verməlidir.

**I.5. Komanda və ya komanda üzvlərinin Müsabiqədən imtinası və komanda tərkibinin dəyişdirilməsi.** Təqvimdə komandanın Müsabiqədən imtinası və ya komanda tərkibinin dəyişdirilməsi üçün son tarix (bundan sonra "dəqiqləşdirmə üçün son gün") müəyyənləşdirilir. Əgər üzv dəqiqləşdirmə üçün son gündən əvvəl komandanı tərk edirsə və ya yeni üzv əlavə edilirsə, tərkibin dəyişdirilməsi barədə məlumat e-poçt vasitəsilə Təşkilatçıya verilir. Bu məlumat dəqiqləşdirmə üçün son gündən əvvəl verildiyi təqdirdə dəyişdirilmə həyata keçirilə bilər. Eyni şəkildə, bütün komanda Müsabiqədə iştirakdan imtinası barədə məlumatı Təşkilatçıya yalnız dəqiqləşdirmə üçün son gündən öncə verərsə, Müsabiqəni tərk edə bilər. Dəqiqləşdirmə üçün son günə kimi 2 (iki) nəfərdən az üzvü olan Komanda Müsabiqədən xaric edilmiş sayılır.

**I.6. Vicdanlılıq prinsipi.** Hər bir iştirakçı Müsabiqə zamanı vicdanlılıq prinsipinə və etik qaydalara əməl etməlidir. Bunlara əməl olunmazsa, bu pozuntunun sanksiyası Təşkilatçının diskresion səlahiyyətləri əsasında müəyyənləşdiriləcək.

## II. Müsabiqənin mərhələləri

**II.1. Yazılı mərhələ.** Qeydiyyatdan keçən komandalar Təşkilatçı tərəfindən elan edilən Mediasiya probleminə (bundan sonra "Problem") müvafiq olaraq həm mediasiyanı tələb edən (bundan sonra "Təşəbbüskar"), həm də tələbə cavab verən (bundan sonra "Cavabverən") tərəflər qismində Mediasiya Planlarını (bundan sonra "Plan") təqdim edirlər. Planların qiymətləndirilməsində ən yaxşı nəticə göstərən 10 (on) komanda şifahi mərhələyə keçir.

**II.2. Şifahi mərhələ.** Bu mərhələdə hər komanda bir dəfə təşəbbüskar, bir dəfə isə cavabverən qismində ümumilikdə 2 (iki) mediasiya sessiyasında (bundan sonra "Sessiya") iştirak edir. Yazılı mərhələdə hazırlanmış Planların və komandalar Sessiyalardakı çıxışlarının qiymətləndirilməsi nəticəsində ən yüksək bal toplayan 4 (dörd) komanda Yarım-final mərhələsinə keçir.

**II.3. Yarım-final mərhələsi.** Bu mərhələyə keçmiş komandalar üçün yeni Problem elan edilir. Komandalar Problemə müvafiq olaraq təşəbbüskar və cavabverən qismində 2 (iki) Plan yazır, həmçinin 2 (iki) mediasiya sessiyasında iştirak edir. Planların və Sessiyaların qiymətləndirilməsi nəticəsində ən yüksək bal toplayan 2 (iki) komanda final mərhələsinə keçir.

**II.4. Final mərhələsi.** Finala keçən komandalar üçün sonuncu Problem elan edilir. Bu zaman komandalar təşəbbüskar və ya cavabverən qismində 1 (bir) Plan yazır və 1 (bir) Sessiyada iştirak edir. Plan və Sessiyanın qiymətləndirilməsi nəticəsində ən yüksək bal toplayan komanda qalib gəlir.

## III. Mediasiya problemi və planı

**III.1. Problemin elanı.** Təşkilatçı Müsabiqəyə qeydiyyat başlamazdan əvvəl ilk Mediasiya Problemini (bundan sonra "Problem") Müsabiqə vebsaytında yerləşdirir. Müsabiqə bu Problemdəki hüquqi məsələlər barədə iştirakçı komandaların formalaşdırdığı arqumentlər üzrə aparılır.

**III.2. Problemin məzmunu.** Problem bütün iştirakçılar üçün nəzərdə tutulmuş ümumi məlumatlardan, təşəbbüskar və cavabverən tərəflər üçün konfidensial məlumatlardan ibarət olur.

**III.3. Dəqiqləşdirmə.** Komandalar Təqvimdə göstərilən tarixə qədər Problem ilə bağlı dəqiqləşdirmə tələbi irəli sürə bilərlər. Belə tələblər mübahisə predmeti baxımından hüquqi əhəmiyyətli olmalıdır. Dəqiqləşdirmə tələbi sorğunun əhəmiyyətinin əsaslandırılmasını da ehtiva etməlidir. Belə əsaslandırma qeyd olunmazsa, irəli sürülmüş tələb nəzərə alınmaya bilər.

**III.4. Plan.** Hər bir qeydiyyatdan keçən komanda Müsabiqədə irəliləmək üçün həm təşəbbüskar, həm də cavabverən üçün yazmış olduğu ümumilikdə 2 (İki) Mediasiya Planı təqdim etməlidir. Mediasiya Planının əsas məqsədi lakonik şəkildə tərəflərin maraqlarını əks etdirmək, mediasiyada həyata keçirəcəkləri strategiyanı açıqlamaq və mübahisənin həlli üçün öz təkliflərini verməkdir. Planın tərkibi və onun necə yazılmalı olması barədə ətraflı məlumat vermək üçün "Plan Bələdçisi" Müsabiqə saytına yerləşdiriləcəkdir.

**III.5. Faktlara uyğunluq.** Problemdə göstərilmiş faktlar Planın yazılması və Sessiyalar zamanı heç bir halda təhrif oluna, yanlış təqdim edilə və ya təxmini faktların əlavə edilməsi ilə dəyişdirilə bilməz.

**III.6. Texniki tələblər.** Planın bütün hissələri (üz qabığı xaric) 3 (üç) səhifədən artıq olmamalıdır. Planda istifadə olunan yazı şrifti Times New Roman, sətir aralığı 1,5, yazının ölçüsü 12 (on iki) olmalıdır.

**III.7. Göndərmə.** Bütün planlar Təqvimdə göstərilən tarixə kimi təqdim olunmalıdır.

**III.8. Təqdimat qaydası.** İştirakçı komanda Planları Microsoft Word (*.docx) formatında Müsabiqə vebsaytındakı müvafiq bölmə vasitəsilə təqdim

etməlidir. Planlar lazımi qaydada adlandırılaraq təqdim edilməlidir. Belə ki, fayl adı (i) komanda nömrəsindən və (ii) planın Təşəbbüskar və ya Cavabverənə aid olmasını göstərmək üçün müvafiq olaraq "T" və ya "C" hərflərindən ibarət olur (məsələn, 3T və ya 3C). Təşkilatçı elektron versiyanı, başqa qanuni məqsədlərlə birgə, müəyyən olunan səhifə sayı və digər məhdudiyyətlərə uyğunluğunu təsdiq etmək üçün istifadə edir.

**III.9. Təkrar göndərmə.** Planlar göndərilmə üçün müəyyən olunmuş son tarixə qədər bir neçə dəfə təkrarən göndərilə bilər. Müəyyən olunmuş son tarixdən əvvəl ən son göndərilmiş Plan Müsabiqə məqsədləri üçün rəsmi olaraq yekun Plan kimi qəbul edilir.

**III.10. Planlar üzərində sonrakı səlahiyyət.** Bütün göndərilən Planlar Təşkilatçının səlahiyyətinə keçir. Təşkilatçı Planları öz diskresion səlahiyyəti daxilində sonrakı illərdə başqa iştirakçılar tərəfindən nümunə kimi oxunula bilməsi də daxil olmaqla, müxtəlif qanuni məqsədlər üçün istifadə edə bilər.

## IV. Mediasiya sessiyaları

**IV.1. Mediasiyanın formatı.** Sessiyalarda qarşılaşan komandalar biri Sifarişçi, biri Təmsilçi olmaqla, 2 (iki) üzvlə təmsil olunur. Təmsilçinin hüquq fakültəsi tələbəsi olması mütləqdir. Hər bir Sessiyanın müddəti 40 (qırx) dəqiqə ilə məhdudlaşır. Sessiya komandaların qarşılıqlı danışıqları şəraitində həyata keçirilir. Sessiya başlamazdan öncə komandalar öz mövqeyinə uyğun çap olunmuş Planı A4 ölçülü kağız daşıyıcıda olmaqla 4 (dörd) nüsxədə koordinatorlara təqdim etməlidir.

**IV.2. Xüsusi danışıqlar növləri.** Sessiya müddətində ümumi danışıqlar prosesindən əlavə olaraq, komandaların və ya mediatorun tələbi ilə iki növ xüsusi formatta danışıqlar da aparıla bilər: 1) ayrı-ayrılıqda danışıqlar; 2) qarışıq danışıqlar.

**IV.2.1. Ayrı-ayrılıqda danışıqlar.** Bu zaman komandalardan biri mediatorla təklikdə müzakirə aparır. Danışıqda iştirak etməyən komandanın üzvləri isə otağı tərk edirlər.

**IV.2.2. Qarışıq danışıqlar.** Burada isə mediator ilə hər iki komandanın sifarişçiləri və ya hər iki komandanın təmsilçiləri arasında danışıqlar baş verir. Danışıqlar komandaların sifarişçiləri və mediator arasındadırsa, hər iki komandanın təmsilçiləri otağı tərk edir. Alternativ olaraq, danışıqlar komandaların təmsilçiləri və mediator arasındadırsa, hər iki komandanın sifarişçiləri otağı tərk edir.

**IV.3. Limitlər.** Hər bir komanda Sessiya müddətində 1 (bir) ayrı-ayrılıqda

danışıqlar və 1 (bir) dəfə qarışıq danışıqlar tələb edə bilər. Qiymətləndirmə zamanı xüsusi danışıq növlərindən ağlabatan şəkildə istifadə edilib-edilməməsi də nəzərə alınır. Danışıqların hər biri 4 (dörd) dəqiqədən artıq çəkə bilməz. Danışıqlara ayrılan vaxt 40 (qırx) dəqiqəlik Sessiya müddətinə daxildir.

**IV.4. Fasilə.** Hər bir komanda Sessiya müddəti ərzində bir dəfə 3 (üç) dəqiqədən artıq olmamaq şərti ilə Fasilə götürə bilər. Fasilə götürən komanda üzvləri otağı tərk edərək müəyyən olunmuş müddət ərzində fikir mübadiləsi apara bilər.

## V. Yarım-final və Final mərhələsinin sessiyaları

**V.1. Fərqli qayda.** Mediasiya sessiyaları ilə bağlı bütün müddəalar Yarım-final və Final mərhələlərində də tətbiq olunur. Bununla belə, bu mərhələlərlə bağlı bir neçə məsələ fərqli tənzimlənməkdədir:

**V.2. Püşkatma.** Təşkilatçı tərəfindən həm Yarım-final, həm də Final mərhələsinə keçən komandalar arasında püşkatma keçirilməklə hansı komandanın təşəbbüskar, hansı komandanın cavabverən kimi çıxış edəcəyi müəyyən olunur. Yarım-finala və ya Finala keçən komandalar əvvəlki mərhələdə qarşılaşmışdırlarsa, həmin mərhələdə təşəbbüskar olan komanda cavabverən kimi, cavabverən olan komandıa isə təşəbbüskar kimi çıxış edir.

**V.3. Planların yoxlanılması.** Müsabiqənin Yazılı mərhələsində yazılan Planlar Şifahi mərhələnin Sessiya gününə qədər mediatorlar tərəfindən yoxlanılmış olur. Yarım-final və Final mərhələlərində isə komanda üzvləri Sessiyanın keçiriləcəyi otağa daxil olaraq öz Planlarını mediatorlara təqdim edib otaqdan çıxırlar. Növbəti 15 dəqiqə ərzində mediatorlar Planları oxuyaraq qiymətləndirir. Qiymətləndirmə bitdikdən sonra komandalar otağa dəvət edilir və Sessiya başlayır.

## VI. Qiymətləndirmə və sıralama

**VI.1. Planların qiymətləndirilməsi.** Təşəbbüskar və cavabverənin mövqeyinə müvafiq yazılmış Mediasiya Planları Müsabiqə mediatorları tərəfindən 50-100 bal aralığında qiymətləndirilir.

**VI.2. Şifahi sessiyaların qiymətləndirilməsi.** Sessiyanı müşahidə edən 3 (üç) mediator hər iki komandanın üzvlərini 25-50 bal aralığında qiymətləndirir. Həm təşəbbüskar, həm cavabverən tərəfindən iki üzv çıxış etdiyinə görə şifahi qiymətləndirmə üzrə bir komandanın bir mediatordan ala biləcəyi minimum bal 50, maksimum bal 100-dür. Fövqəladə hallarda şifahi raund

yalnız iki fərqli mediator tərəfindən qiymətləndirilə bilər. Bu halda şifahi raund üzrə üçüncü qiymətləndirmə kimi iki mediatorun verdiyi balların ortalamaları nəzərə alınır.

**VI.3. Ümumi qiymət.** Bir komandanın ümumi qiyməti planların (təşəbbüskar və cavabverən planları) və Sessiyaların (iki Sessiya) ballarının cəmidir. Ən yüksək mümkün ümumi qiymət 400 baldır.

**VI.4. Qiymətləndirmə meyarları.** Mediatorlar həm Planları, həm də komanda üzvlərinin Sessiyalardakı performansını Təşkilatçı tərəfindən təqdim edilən qiymətləndirmə cədvəlinə müvafiq qiymətləndirir.

**VI.5. Sıralama.** Komandaların sıralama cədvəli ümumi qiymətlərə əsasən müəyyənləşdirilir. Şifahi mərhələnin nəticələri əsasında ümumi qiyməti ən yüksək olan 4 (dörd) komanda Yarım-finala keçir. Final mərhələsinə isə Yarım-final mərhələsində ümumi qiyməti ən yüksək olan 2 (iki) komanda keçir. Son olaraq, Final mərhələsində ən yüksək ümumi qiyməti olan komanda Müsabiqənin qalibi olur.

**VI.6. Sıralamada bərabərlik və ya heç-heçə halı.** Sıralama zamanı bir neçə komanda bir yeri bölüşürsə, sıralamanın dəqiqləşdirilməsi üçün aşağıdakılar ardıcıllıqla bərabərlik aradan qalxana qədər tətbiq olunur:

i. Komandaların ən yuxarı Plan balları ümumi baldan çıxılır. Əgər bərabərlik yenə qalarsa;

ii. Fərdi mediatorlar tərəfindən komandaya verilən ən yüksək və ən aşağı şifahi sessiya balları ümumi baldan çıxarılır. Əgər bərabərlik yenə qalarsa;

iii. Fərdi mediatorlar tərəfindən komandaya verilən ən yüksək və ən aşağı Cavabverən Planlarının balları ümumi qiymətdən çıxılır. Əgər bərabərlik yenə qalarsa;

iv. Fərdi mediatorlar tərəfindən komandalara verilən ən yüksək 2 (iki) və ən aşağı 2 (iki) Sessiya balları çıxılır. Əgər bərabərlik yenə qalarsa;

v. Fərdi mediatorlar tərəfindən komandalara verilən ən yüksək 2 (iki) və ən aşağı 2 (iki) Plan balları çıxılır. Əgər bərabərlik yenə qalarsa, Təşkilatçı bunun üçün öz mülahizəsinə əsasən komandaların bir-birinə qarşı əlavə sessiyasını təyin edə bilər.

**VI.7. Balların elan edilməsi.** Hər bir komandanın qiymətləndirilməsinin

nəticələri həmin komandanın Müsabiqə veb-saytındakı müvafiq səhifəsində yerləşdiriləcəkdir. Bu nəticələr Təşkilatçı tərəfindən komandalara başqa müvafiq üsullarla da göndərilə bilər.

## VII. Cəzalar

**VII.1. Planların qeyri-məqbul sayda təqdim olunması.** Komandalar IV.1.-dəki qaydanı pozaraq qeyri-məqbul sayda Plan təqdim edərsə, 5 (beş) balla cəzalandırılır.

**VII.2. Planların gec təqdimatı.** Hər hansı bir komanda öz planını III.7. qaydasını pozaraq Təqvimdə göstərilmiş tarixdən sonra təqdim edərsə, həmin tarixdən sonrakı hər bir gecikmə günü üçün 3 (üç) balla cəzalandırılır. Bu bal hər bir mediatorun gecikdirilən Plana verdiyi baldan ayrılıqda çıxılır. Komanda öz Planlarını Təqvimdə müəyyən olunmuş son tarixdən sonrakı 5 gün ərzində təqdim etmirsə, Müsabiqədən kənarlaşdırılır.

**VII.3. Şifahi sessiyalara gecikmə.** Komanda şifahi sessiyanın keçiriləcəyi yerə əvvəlcədən məlumat verilmiş tarixdə və saatda gəlməzsə, gecikilən hər 15 (on beş) dəqiqə gecikmə üçün komandanın ümumi balından 5 (beş) bal çıxılmaqla cəzalandırılır.

**VII.4. Normadan artıq uzunluq.** Komandalar Planların (üç) səhifədən artıq hər 50 (əlli) sözü üçün 5 (beş) balla cəzalandırılır.

**VII.5. Format səhvləri.** Planda edilən format səhvləri ilə bağlı təyin olunmuş cəzalara uyğun olaraq planın nəticəsindən müvafiq bal çıxılır. Planda yanlış sətir aralığından istifadəyə görə 2 (iki) bal, yanlış şriftdən istifadəyə görə 3 (üç) bal, yanlış şrift ölçüsündən istifadəyə görə 3 (üç) bal, Plana daxil edilməli olan hissələrdən hər hansı birinin çatışmamasına görə hər çatışmayan hissə üçün 5 (beş) bal cəza müəyyən edilir.

**VII.6. Konfidensial məlumatı yayma.** Komandalara təqdim olunmuş konfidensial məlumatların digər şəxslərlə paylaşıldığı müəyyən olunarsa, komanda Müsabiqədən kənarlaşdırılır.

**VII.7. Xaricdən dəstək.** Müsabiqədə iştirak komanda işidir. Hər hansı komanda üzvünün Müsabiqənin hər hansı bir mərhələsi ilə bağlı onun komandasında olmayan hər hansı bir şəxslə məsləhətləşdiyi, kömək aldığı müəyyən olunarsa, komanda Müsabiqədən kənarlaşdırılır.

**VII.8. Əlavə vasitələrdən istifadə.** Komandalar kalkulyator və saat gətirə bilərlər, lakin digər elektron vasitələrin istifadəsi qadağandır. Həmin vasitələrdən istifadəyə görə 5 (beş) bal cəza müəyyən edilir.

**VII.9. Plagiat hallarının müəyyənləşdirilməsi.** Hazırlanan Planlarda qeyd olunan məlumatlar istinad olunan mənbələr göstərilməklə istifadə oluna bilər. Planlarda plagiat halı aşkar edilərsə, 1- 50 bal aralığında cəza müəyyən edilir.

**VII.10. Süni intellektdən istifadənin yolverilməzliyi.** Aşağıdakılar süni intellektdən istifadənin qaydalarını pozur:

*i.* Süni intellekt vasitəsilə yaradılmış mətni təqdim etmək, mətn sonradan dəyişdirilmiş və ya buna əlavələr edilmiş olunsa belə;

*ii.* TEC-in Müsabiqə ilə əlaqəli paylaşdığı materiallardan istifadə etməklə süni intellekti öyrətmək.

Süni intellektdən istifadə həmin plan üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. İstifadənin həcmi əhəmiyyətli dərəcədə olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

**VII.11. Diskresion cəza.** Tənzim olunmamış hər hansı hal baş verərsə, Təşkilatçı cəzalandırma ilə bağlı diskresion səlahiyyətə sahibdir.

## VIII. Nominasiyalar

Təşkilatçı "Xoyski Mediasiya Müsabiqəsinin Qalibi", "Xoyski Mediasiya Müsabiqəsinin Finalisti" adından başqa, "Ən Yaxşı Ümumi Plan Nəticəsi", Ən Yaxşı Təşəbbüskar Planı", "Ən yaxşı Cavabverən Planı", Şifahi mərhələnin, Yarım-finalın, Finalın "Ən Yaxşı Natiqləri" və Müsabiqənin məqsədləri üzrə uyğun bildiyi digər nominasiyalar üzrə qalibləri elan edə bilər.